5 dekabr 2019-cu il, cümə axşamı XALQ QƏZETİ

# Sosial-iqtisadi islahatların əsas hədəfi insanların rifahını yaxşılaşdırmaqdır

**İslahatların əsas hədəfi Azərbaycanı müasir, inkişaf edən və gələcəkdə inkişaf etmiş ölkəyə çevirməkdir, ölkədə mövcud olan nöqsanları aradan qaldırmaqdır, vətəndaşları narahat edən problemləri tamamilə gündəlikdən çıxarmaqdır, insanların rifah halını yaxşılaşdırmaqdır, daha güclü, qüdrətli dövlət qurmaqdır. Biz bu istiqamətdə məqsədyönlü, hərtərəfli siyasət aparırıq, həm beynəlxalq mövqelərimizi möhkəmləndiririk, həm də regional əməkdaşlıq təşəbbüsləri ilə çıxış edirik.**

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Ötən əsrin 80-ci illərində keçmiş SSRİ-də sosializmin inzibati-amirlik modeli böhranla üzləşmişdi. Bu proses Azərbaycandan da yan keçməmişdi və insanların vətənpərvərlik hisslərindən faydalanaraq təşəbbüsü ələ alan "liderlər" çox cidd-cəhdlə fenomenal, özünü dövlət idarəçiliyinin ən yüksək postunda təsdiqləyən dahi şəxsiyyəti, ümummilli lider Heydər Əliyevi bütün vasitələrlə siyasi proseslərdən kənarlaşdırmağa çalışırdılar. Dünyada baş verən prosesləri dərk etmək iqtidarında olmayan AXC–Müsavat cütlüyündə təmsil olunan şəxslər, nəhayət, müstəqillik ideyası ətrafında birləşən cəmiyyətdə qarşıdurma yaratdılar və ölkəni vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qoydular. Yalnız bu məqamda öz acizliklərini anlayaraq, eyni zamanda, xalqın qəzəbindən qorxaraq, ulu öndər Heydər Əliyevə üz tutub hakimiyyətdən uzaqlaşdılar.**

Həmin dövrdə AXC–Müsavat rəhbərliyinin səriştəsizliyi ucbatından iqtisadiyyatda tənəzzül hökm sürürdü, kənd təsərrüfatının ənənəvi sahələrində, sənaye istehsalında dərin böhran yaşanırdı, inflyasiya min faizlərlə ölçülürdü, bir sözlə, iqtisadiyyat defolt həddə çatmışdı və ölkənin perspektivi, demək olar ki, dəhşətli şəkildə narahatlıq doğururdu.

Azərbaycan Prezidenti İlham Əliyev Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə söylədiyi nitqində bu barədə ətraflı bəhs edib. Dövlətimizin başçısı deyib: "Bizim ən ağır günlərimizdə xəzinə boş idi, Xalq Cəbhəsi–Müsavat cütlüyü talamışdı, Ləl-Cəvahirat Fondunu talamışdı. İnsanlar öz axırıncı qızıl əşyalarını aparırdılar ki, ordumuza kömək etsinlər. O vaxt prezident, dövlət katibi, baş nazir o Ləl-Cəvahirat Fondunu talan etmişlər. İndi onun izi-tozu da qalmayıb. O vaxt xəzinə boş olanda, biz kreditlər üçün müraciət edəndə heç kim bizə kredit vermirdi. Yaxşı, əgər siz Azərbaycanı bu qədər sevirsinizsə, nə üçün o vaxt bizə kömək etməmisiniz?! Nə üçün ağır vəziyyətdə olan ölkəyə kömək etməmisiniz?! İndi sıra ilə düzülüblər bizə kredit vermək istəyənlər. Biz almırıq. Biz özümüz kredit veririk. Bizim xarici dövlət borcumuz ümumi daxili məhsulun 17 faizini təşkil edir. Bu göstəriciyə görə biz dünyada doqquzuncu yerdəyik".

Bu məqamda xatırladaq ki, həyata keçirilən düzgün strategiyanın məntiqi nəticəsidir ki, cari il yanvarın 1-nə Azərbaycan Respublikasının xarici dövlət borcu 8,927.1 milyon ABŞ dolları (15,176 milyon manat), xarici dövlət borcunun Ümumi Daxili Məhsula (ÜDM) olan nisbəti 19 faiz (2018-ci il üçün hesablanmış 79,797,30 milyon manat ÜDM-ə nisbətdə) təşkil edib. Hazırda isə həmin göstərici 17 faiz səviyyəsinə enib.

Beləliklə, son 1 ildə xarici borc 680 milyon dollar, ÜDM-ə nisbətdə isə 3,8 faiz-bənd azalıb. Təbii ki, bu, müsbət tensensiyadır və hökumətin xarici borclarla bağlı yeni strategiyasına uyğundur.

Ulu öndər Heydər Əliyevin ölkəmizin inkişafı sahəsində başladığı nəhəng işlər, möhtəşəm layihələr son 16 il ərzində bu dahi şəxsiyyətin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilib. Ötən müddətdə Azərbaycanın iqtisadi potensialının gücləndirilməsi, reallaşdırılan diversifikasiya siyasəti, müasir texnologiyalara əsaslanan və rəqabətqabiliyyətli məhsul istehsal edən yüzlərlə müəssisənin fəaliyyətə başlaması təbii ki, ölkəmizin dünyada nüfuzunu artırıb.

Bu gün Azərbaycanın xarici iqtisadi əlaqələrinin genişlənməsində önəmli rol oynayan nəqliyyat infrastrukturu müasir dünya standartlarına uyğunlaşdırılıb, tranzit potensialı daha da artırılıb. Bütün bunlar ölkəmizin sosial-iqtisadi inkişafına əsaslı töhfə verməklə, Azərbaycanı mühüm nəqliyyat qovşağına və dəhlizlərin keçdiyi məkana çevirib.

Son illər ərzində ölkəmizdə nəqliyyat infrastrukturunun inkişafı ilə bağlı irimiqyaslı layihələr həyata keçirilib, bu sahəyə böyük həcmli dövlət investisiyaları yönəldilib. Avtomobil yollarının və dəmir yolu xətlərinin, xüsusilə Gürcüstan, Rusiya və İran istiqamətində ölkə ərazisindən keçən magistral yolların beynəlxalq standartlar



əsasında yenidən qurulması, Bakıda və regionlarda beynəlxalq hava limanlarının, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində gerçəkləşdirilən layihələr Azərbaycanın nəqliyyat infrastrukturunun inkişafında əhəmiyyətli rol oynamaqla yanaşı, ölkəmizin tranzit potensialını daha da gücləndirib.

Təsadüfi deyildir ki, dünya qlobal maliyyə və iqtisadi böhranı şəraitində inkişaf yolu keçən bir çox dövlətlər ciddi çətinliklərlə üzləşdikləri halda, Prezident İlham Əliyevin çevik, praqmatik siyasəti sayəsində Azərbaycan xarici iqtisadi təsirləri neytrallaşdırıb, nəzərdə tutulan bütün sosial-iqtisadi proqramlar tam icra edilib, iqtisadiyyatımız artıb. Bütün bunlara nail olunmasında isə iqtisadiyyatın şaxələndirilməsi, neftdən asılılığın minimuma endirilməsi, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi tədbirləri mühüm önəm daşıyır.

Azərbaycanın inkişaf göstəricilərinin davamlı olaraq yüksəlməsi həyata keçirilən siyasətin, aparılan islahatların real həyatda təsdiqini əks etdirir, sosial-iqtisadi nailiyyətlərin davamlılığı və dayanıqlı inkişaf üçün etibarlı zəmin yaradır.

Prezident İlham Əliyev Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə söylədiyi nitqində respublika iqtisadiyyatının bugünkü vəziyyətinə də toxunaraq deyib: "Azərbaycan iqtisadiyyatı inkişaf edir. Mən gələcəkdə iqtisadi sahədə heç bir problem görmürəm. Manatın məzənnəsi artıq üç ildir ki, sabitdir. Əminəm ki, belə davam edəcək. Valyuta ehtiyatlarımız artır. Valyuta ehtiyatlarımız ümumi daxili məhsuldan artıq çoxdur… Sənaye artır. Bu il qeyri-neft sənayemiz 15 faiz, kənd təsərrüfatı 7 faiz artıbdır. Davos Ümumdünya Forumu bizi çox yüksək yerlərə layiq görür, o cümlədən islahatların aparılması istiqamətində. İslahatlara meyillilik və rəhbərliyə olan inam əmsalına görə biz dünyada birinci onluqdayıq. Özü də bunu biz yox, Davos deyir. Dünya Bankı nə deyir? Deyir ki, Azərbaycan 20 ən islahatçı ölkə sırasındadır".

Hazırda ölkə həyatının bütün sahələrində ciddi islahatlar gerçəkləşdirilir. Belə şərait dayanıqlı iqtisadi inkişafın sürətləndirilməsinə və bunun nəticəsində maliyyə imkanlarının genişlənməsinə müsbət təsir göstərir. Bu isə, öz növbəsində, sosial sahədə dövlət siyasətinin daha uğurla reallaşdırılmasını təmin edir. Hazırda bu, sözügedən istiqamətdə tədbirlərin ardıcıl şəkildə həyata keçirilməsi prosesində daha aydın müşahidə olunur.

Respublikada səmərəli iqtisadi tədbirlər görülməsi hesabına əlavə gəlirlərin əldə olunması və büdcənin güclənməsi sosial islahatların gerçəkləşdirilməsinə əlverişli şərait yaradır.

Prezident İlham Əliyev əvvəlki çıxışlarında da son vaxtlar həyata keçirilən islahatların nəticəsi kimi, vergi orqanlarının büdcə daxilolmalarındakı rolunu yüksək qiymətləndirərək, bu qurumun şəffaf fəaliyyəti, habelə islahatlar hesabına büdcə daxilolmalarının böyük dərəcədə artdığını diqqətə çatdırıb. Dövlət başçısı, vurğulayıb ki, daxil olan əlavə gəlirlər, ilk növbədə, sosial məsələlərin həllinə, insanların rifahının yaxşılaşdırılmasına yönəldilir.

Prezident İlham Əliyev Azərbaycanda sahibkarlığın inkişafı, əlverişli biznes mühitinin yaradılması, şəffaf vergi sisteminin formalaşması kimi məsələlərin həllini qarşıya mühüm vəzifə kimi qoyub. Dövlət başçısı qeyd edib ki, 2018-2019-cu illərdə vergi sistemində aparılan islahatlar nəticəsində məmur-sahibkar təmasları xeyli azalıb, şəffaflıq və büdcəyə daxilolmalar əhəmiyyətli dərəcədə artıb.

Dövlətimizin başçısı Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə islahatlardan danışarkən, bu məsələnin ölkəmizin social-iqtisadi inkişafının sürətlənməsində önəmli rol oynadığını xüsusi vurğulayıb: "İslahatlar bizim şüurlu seçimimizdir. Elə fərz edə bilərik ki, nəyə lazımdır bu islahatlar? Onsuz da hər şey yolunda gedir, ölkə inkişaf edir, yeni müəssisələr açılır, abadlıq işləri görülür. Yox, struktur islahatları, siyasi islahatlar, iqtisadi islahatlar lazımdır. Baxın, iqtisadi islahatlar nəticəsində təkcə bu ilin on ayında büdcəyə 850 milyon manatdan çox vəsait toplamışıq. Bunları sosial sahəyə yönəldirik. Amma bu, hələ islahatların növbəti mərhələsinin birinci addımlarıdır. Bundan sonra da daha böyük addımlar atılacaqdır. Bu, imkan verir ki, sosial sahəyə böyük diqqət yetirək. Bundan 4 milyon 200 mindən çox insan faydalanıb. Bu il minimum əməkhaqqı iki dəfə, minimum pensiya 70 faiz, müavinətlər iki dəfə, tələbələrin təqaüdləri 50 faiz, köçkünlərə verilən təqaüd 50 faiz artırılıb. Nəyin hesabına? Bu, göydən düşən deyil, bunları islahatların hesabına əldə edirik, əldə etməliyik".

Bu gün Azərbaycanda əhalinin sosial müdafiəsinin günün tələblərinə uyğun təşkili, bu sahədəki problemlərin aradan qaldırılması istiqamətdə həyata keçirilən islahatlar nəticəsində respublikada yoxsulluq həddində yaşayanların sayı getdikcə azalır. Son 16 ildə ölkədə 2 milyon yeni iş yerinin yaradılması, yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə müvafiq dövlət proqramlarının uğurlu icrası nəticəsində yoxsulluq səviyyəsinin 49 faizdən 4,9 faizə, işsizlik səviyyəsinin isə 5 faizə endirilməsi bunun bariz ifadəsidir.

Əhalinin rifahının yaxşılaşdırılması ilə bağlı danışarkən, bir məqamı da xatırlatmaq istərdik. Bu, hər bir ölkənin, xalqın problemlərinin ən səmərəli yolunun məhz iqtisadi-sosial islahatlardan keçməsi həqiqəti ilə bağlıdır. Ona görə də respublikamızın iqtisadi siyasətinin sosialyönümlü xarakter daşıması təsadüfi deyil. Bu, bir tərəfdən insan amilinə yüksək həssaslıq nümunəsidirsə, digər tərəfdən bazar iqtisadiyyatı yolu ilə inkişaf edən bir sıra qabaqcıl dünya dövlətlərinin təcrübəsinə əsaslanır. Dövlət başçısı İlham Əliyev də bu reallığı daim önə çəkir. Çünki insanların sosial şəraitinin yaxşılaşdırılması iqtisadi-sosial islahatların həyata keçirilməsinə, iqtisadi inkişaf prosesində hər bir vətəndaşın iştirakını təmin etməyə müsbət təsir göstərir.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***